

**Bu günlərdə yenidən unudulmaz, fərəhli anların şahidi olduq. Heydər Əliyev Fondunda "Azərbaycan muğamı" multimedia toplusunun və "Muğam aləmi" nəşrinin təqdimat mərasimi keçirildi...**

# Muğam sənətinin inkişafına layiqli töhfə

Heydər Əliyev Fondunun 2005-ci ildən həyata keçirdiyi "Azərbaycan muğamları" layihəsi çərçivəsində 24 virtuoz muğam ustadının ifaları toplanmış "Qarabağ xanəndələri" musiqi albomu böyük maraqla qarşılanan ilk və uğurlu iş olmuşdu. Fond tərəfindən 2008-ci ildə hazırlanan "Muğam ensiklopediyası" qədim musiqi irsimizin qorunması və inkişafı yolunda sanballı nəşr kimi dəyərləndirilir. Fondun dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzinin inşası, 2005-2007-ci illərdə respublika muğam müsabiqələrinin, 2009-cu ildə dünyanın 11 ölkəsinin iştirak etdiyi Beynəlxalq Muğam Festivalının keçirilməsi qədim ifaçılıq ənənələrini inkişaf etdirərək gənc istedadlı xanəndələri üzə çıxarmaq və muğam sənətini dünyada təbliğ etmək məqsədi daşıyır.

Fondun muğamın qorunması və təbliği istiqamətindəki növbəti uğurlu layihələri "Azərbaycan muğamı" interaktiv audiovizual multimedia toplusu və "Muğam aləmi" nəşridir.

Fondun "Azərbaycan muğamları" layihəsi çərçivəsində tədris vəsaiti kimi təqdim olunan "Azərbaycan muğamı" multimedia toplusu musiqi irsimizin ən qiymətli incisi olan muğamın növlərini, janrlarını, mənşəyini, quruluşunu, musiqi məzmununu və kompozisiya xüsusiyyətlərini ətraflı şərh edir. "Azərbaycan muğamı" interaktiv audiovizual multimedia toplusu 8 diskdən ibarətdir. Toplu Azərbaycan və ingilis dillərində hazırlanmışdır.

Dərs vəsaiti kimi nəzərdə tutulmuş birinci disk 6 bölmədən - "Muğamlar", "Muğam notları", "Simfonik muğamlar", Milli musiqi alətləri", "Şəxsiyyətlər" və "Lüğət" bölmələrindən ibarətdir. "Muğamlar" bölməsində muğam dəstgahları, kiçik həcmli muğamlar, zərb muğamlar, "Muğam notları" bölməsində Azərbaycanın 7 əsas muğamının notları təqdim olunur.

Azərbaycanın simfonik muğamları haqqında ümumi məlumat, Fikrət Əmirov və Niyazinin simfonik muğamları "Simfonik muğamlar" bölməsində yerləşir. "Milli nusiqi alətləri" bölməsində qədim musiqi alətlərimizin interaktiv məndəricatı təqdim edilir, hər bir alət haqqında ətaflı məlumat verilir. "Şəxsiyyətlər" bölməsində Azərbaycan muğam sənətində sözünü demiş sənətkarların və bu sahədə tədqiqat aparanların, muğamın inkişafına böyük dəstək olan insanların, alimlərin, musiqi xadimlərinin həyatı və yaradıcılığı barədə məlumat vardır. "Lüğət" bölməsində muğam sənətinə aid 300-ə yaxın sözün izahı verilmişdir.

İkinci və üçüncü disk "Muğam dəstgahları" adlanır. İkinci diskdə "Rast", "Şur", "Çahargah", üçüncü diskdə isə Segah", "Şüştər", "Bayatı-Şiraz" və "Humayun" muğamları yazılmışdır. İstənilən muğamı seçib dinləmək mümkündür. Bu disklərdə hər bir muğamın şöbə və guşələri təqdim olunur.

Kiçik həcmli "Qatar", "Rəhab", "Şahnaz" və "Bayatıkürd" muğamları dördüncü diskdədir.

Beşinci diskdə zərb muğamları - "Mənsuriyyə", "Heyratı", "Simayi-şəms", "Heydəri", "Ovşarı", "Mani", "Arazbarı", "Qarabağ" şikəstəsi və "Kəsmə" şikəstə zərb muğamları yer almışdır.

Altıncı yə yeddinci disklərdə Azərbaycanın məşhur xanəndələrinin ifası vardır. Altıncı diskdə Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Seyid Şuşinski, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski, Yavər Kələntərli, Həqiqət Rzayeva, Mütəllim Mütəllimov, Hacıbaba Hüseynov, Sara Qədimova, yeddinci diskdə Əbülfət Əliyev, Fatma Mehrəliyeva, Qulu Əsgərov, Yaqub Məmmədov, Əlibaba Məmmədov, Rübabə Muradova, İslam Rzayev, Qədir Rüstəmov, Arif Babayev və Alim Qasımovun ifaları təqdim olunur.

Səkkizinci diskdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Fikrət Əmirovun "Gülüstan-Bayatı-Şiraz", "Kürd ovşarı", "Şur" və Niyazinin "Rast" simfonik muğamları yazılmışdır.

"Muğam aləmi" toplusu Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu ilin martında Bakıda keçirilmiş Beynəlxalq Muğam Festivalına həsr olunmuşdur. Toplu Azərbaycan, rus, ingilis dillərindəki kitab və Azərbaycan muğam operalarının, simfonik muğamların, klassik Azərbaycan muğamlarının, tanınmış xarici musiqiçilərin çıxışlarının və etnocaz nümunələrinin toplandığı 33 DVD-dən ibarətdir.

Beynəlxalq festivalın materiallarını özündə əks etdirən "Muğam aləmi" nəşri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın sözləri ilə başlayır. Maraqlı fotoşəkillərlə zəngin olan nəşrdə Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun ovaxtkı baş direktoru Koişiro Matsuuranın festivalın açılış mərasimindəki çıxışlarına, habelə Mehriban xanımın festival çərçivəsində beynəlxalq elmi simpoziumdakı çıxışına da yer verilmişdir.

Təqdimat mərasimində çıxış edən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva dedi:

***- Bu gün sizin diqqətinizə muğam sənətinə aid iki yeni layihə təqdim olunacaqdır. Əgər biz yaxın keçmişə nəzər salsaq görərik ki, son illər muğamın qorunması, təbliği, öyrənilməsi, ölkəmizdə və xaricdə populyarlaşması üçün bir çox mühüm işlər həyata keçirilmişdir. "Qarabağ xanəndələri" musiqi albomunun işıq üzü görməsi, "Muğam ensiklopediyası" və "Muğam" jurnalının nəşri, gənc muğam ifaçılarının televiziya müsabiqəsi, paytaxtımızda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi və nəhayət, bu il həmin mərkəzdə keçirilən birinci beynəlxalq muğam festivalı görülən işlərin, bizim birgə səylərimizin nəticəsidir.***

***Ümidvaram ki, bu gün təqdim olunan layihələr də muğam sənətinin inkişafına öz layiqli töhfəsini verəcəkdir. İlk layihəmiz "Azərbaycan muğamı" multimedia toplusu 8 diskdən ibarətdir. Yəqin, demək olar ki, bu nadir bir layihədir. Onun nadirliyi ondan ibarətdir ki, bu, muğama dair müasir texnologiyalara əsaslanan ilk tədris vəsaitidir. Tədris prosesində muğama aid bütün zəruri məlumatlar bu disklərdə öz əksini tapmışdır. Demək olar ki, bu gün müəllimlər üçün, ustadlar üçün belə bir dərslikləri təqdim edirik. Azərbaycan muğamının tarixi, ölkənin mədəni irsində onun rolu və yeri, Azərbaycanın əsas muğamları və onların not yazıları, Azərbaycanın simfonik muğamları, Azərbaycan xalq çalğı alətləri, görkəmli şəxsiyyətlər, muğam terminləri və muğama aid digər materiallar bu topluda, bu disklərdə öz əksini tapıb. Layihə iki dildə - Azərbaycan və ingilis dillərində hazırlanıb və şübhəsiz ki, bu da Azərbaycan muğamının xaricdə təbliğinə öz müsbət təsirini göstərəcəkdir.***



***Mən xüsusi qeyd etmək istərdim ki, heç bir dərslik, heç bir vəsait müəllimləri, ustadları, canlı ünsiyyəti əvəz edə bilməz. Xüsusən də muğam sənətində. Muğam sənəti, muğam bütün dövrlərdə ölkəmizdə yaşayıb, səslənib, duyulub və***



sevilib. Siyasi, ictimai və yaxud iqtisadi vəziyyətdən asılı olmayaraq, muğam sənəti öz xüsusi yerini qoruyub, saxlayıb və yaşayıb. Muğam mədəniyyətinin yaşamasında, nəsildən-nəslə, ustaddan tələbəyə, müəllimdən şagirdə, ağsaqqaldan gəncə çatdırılan sənətkarlıq, ifaçılıq sirləri əvəzsizdir. Bu sirləri öyrənmək üçün canlı təmas, canlı ünsiyyət lazımdır. Belə bir mürəkkəb prosesdə təbii ki, heç bir kitab, ya dərslik, ya videoyazı, audioyazı canlı təması əvəz edə bilməz. Məhz bu canlı ənənə əsrlər boyu bizim məşhur xanəndələrimiz və ustadlarımız tərəfindən qorunub saxlanıb və yaşadılıb. Bu ənənələr bu gün də yaşadılır və mən bizim bütün ustadlarımıza, xanəndələrimizə bir daha öz dərin hörmətimi və təşəkkürümü bildirmək istəyirəm.

Bu baxımdan təqdim olunan layihə muğama dair çox ətraflı məlumatı cəmləşdirən və müəllimlərə, ustadlara, həmçinin tələbələrə tədris prosesində yardım göstərə bilən bir layihədir. Eyni zamanda, təqdim olunan layihə bütün muğamsevərlər üçün muğam haqqında yeni və bənzəri olmayan bir informasiya mənbəyidir.

Təqdim olunan ikinci layihə - "Muğam aləmi" cari ilin mart ayında paytaxtımızda keçirilən I Beynəlxalq Muğam Festivalının və elmi simpoziumunun yekunlarını özündə əks etdirir.

Bu layihə 33 diskdən ibarətdir. O günlər ölkəmizdə, paytaxtımızda keçirilən bütün görüşlər, tədbirlər, konsertlər, yerli və xarici ifaçıların konsertləri bu disklərdə öz əksini tapmışdır.

Eyni zamanda, məşhur xanəndələr və müasir muğam ifaçıları, beynəlxalq muğam müsabiqələrinin qalibləri və iştirakçıları haqqında burada məlumat əks olunur və festivalda iştirak edən bütün qonaqların rəy və fikirləri ilə də burada, bu kitabda tanış olmaq mümkündür.

Demək olar ki, bu layihə bizə o günlər keçirdiyimiz, sözün əsl mənasında, musiqi bayramını yenidən bəxş edir. Bakıda keçirilən I Beynəlxalq Muğam Festivalı bir də sübut etdi ki, muğam - Azərbaycan muğam sənəti Azərbaycanın milli sərvəti olmaqla yanaşı, həmçinin dünya musiqi xəzinəsinin incisidir. Bir daha sübut etdi ki, muğam aləmi hüdudsuz, sərhədsiz bir məkandır və bu məkanı yaşayan, yaşadan insanların artıq daim bir görüş yeri vardır - bu da Bakı Beynəlxalq Muğam Mərkəzidir.

Artıq, demək olar ki, bu, Azərbaycan mədəniyyətinin mərkəzinə, beynəlxalq musiqi mədəniyyətinin mərkəzinə çevrilib. Mən inanıram, şübhəm yoxdur ki, 2011-ci ildə biz birgə səylərimizlə həmin bu mərkəzdə II Beynəlxalq Muğam Festivalını keçirəcəyik və bu, yenə də gözəl bir musiqi bayramına çevriləcəkdir...

Sonra "Azərbaycan muğamı" və "Muğam aləmi" toplularına aid film nümayiş olundu.

Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri Firəngiz Əlizadə yaxın keçmişdə arzulanan layihələrin artıq reallaşdığını olduğunu dedi. O bu gün təqdimatı keçirilən iki layihənin muğam dünyasının təbliğində vacib addım olduğunu bildirərək, bunların Mehriban xanım Əliyevanın səyi nəticəsində baş verdiyini söylədi.

Xalq artisti Arif Babayev Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın son illərdə gördüyü işlərin əvəzsiz olduğunu diqqətə çatdırdı, muğamın yaşadılması ilə bağlı həyata keçirilən layihələrin icrasına görə minnətdarlığını bildirdi.

Əməkdar artist, I Beynəlxalq Muğam Festivalının qalibi Təyyar Bayramov Heydər Əliyev Fondunun böyük ustadlarla yanaşı, gənc ifaçıların inkişafına da da diqqətlə yanaşdığını söylədi, bu amilin gəncləri həvəsləndirdiyini vurğuladı.

● Elmira HƏSƏNQIZI